# HUMANİTAR VƏ SOSİAL ELMLƏR

**UOT-316**

**Rəfail Həsənov**
***Bakı Dövlət Universiteti,***
***s.ü.e.d., professor***
*hasrm62@yahoo.com*

## DÖVLƏT MƏDƏNİYYƏT SİYASƏTİ MİLLİ TƏHLÜKƏSİZLİK STRATEGİYASININ TƏRKİB HİSSƏSİ KİMİ

*Məqalədə dövlət mədəniyyət siyasəti və onun milli təhlükəsizlik sistemində yeri və rolundan bəhs olunur və göstərilir ki, Azərbaycan Respublikasında mədəniyyətin özü milli prioritetlər sırasındadır və dövlət mədəniyyət siyasəti milli təhlükəsizlik strategiyasının tərkib hissəsi kimi tanınır. Mədəniyyət insan potensialının keyfiyyətcə yüksəldilməsi üçün cavabdeh olan sosial əhəmiyyətli sənaye sahələrinə aiddir. Müasir cəmiyyətdə mədəni fəaliyyəti tənzimləyən əsas institut dövlətdir, baxmayaraq ki, burada QHT-lər, xeyriyyəçilik fəaliyyəti və iş adamları da müəyyən yer tutur. Mədəniyyət – hər bir xalqın milli təhlükəsizliyinin qarantı, onun müstəqilliyi və gələcəyidir. Respublikamızda bir çox başqa dövlətlərdə olduğu kimi mədəni təhlükəsizlik sahəsində konsepsiyanın qəbul edilməsinə ehtiyac duyulur.*

***Məqsəd:*** Dövlət mədəniyyət siyasətinin milli təhlükəsizlik strategiyasında tutduğu yeri araşdırmaqdan ibarətdir.

***Metodologiya:*** Sistemli və funksionalist yanaşma mövqelərindən öyrənilən obyektin başa düşülməsinə cəhd göstərilir, onun mədəni varisliyin qorunub saxlanılması və inkişaf etdirilməsi ilə bağlı yeni biliklər əldə etmək üçün imkanları təhlil olunur.

***Elmi yenilik:*** Azərbaycan Respublikasında mədəniyyətin özü milli prioritetlər sırasındadır və dövlət mədəniyyət siyasəti milli təhlükəsizlik strategiyasının tərkib hissəsi kimi tanınır.

***Açar sözlər:*** *dövlət mədəniyyət siyasəti, milli təhlükəsizlik, mədəniyyətin iqtisadiyyatı, mədəni irs, mədəni soyqırım*

### Giriş

Mədəniyyət bütün müxtəlifliyi ilə dövlət, vətəndaş cəmiyyəti və sənət adamları arasında yaradıcı əməkdaşlıq məkanıdır. Bu simbiozda dövlətin əsas vəzifəsi Azərbaycan xalqının mənəvi dəyərlərinin qorunmasını, mədəni inkişafın davamlılığını və yüksəldilməsini təmin etməkdir. Belə ki, AR Prezidentinin 15 fevral 2013-cü il tarixli fərmanı ilə qüvvəyə minmiş "Mədəniyyət haqqında Azərbaycan Respublikasının Qanunu"nun "Ümumi müddəalar" adlanan birinci fəslində (1.0.3. bəndi) mədəniyyət sahəsində dövlət siyasəti "mədəni irsin və mədəni sərvətlərin yaradılması, müəyyən edilməsi, qorunması, inkişafı və təbliği sahəsində həyata keçirilən tədbirlərdə dövlətin rəhbər tutduğu məqsədlər, prinsiplər, normalar, konsepsiya, strategiya və dövlət proqramlarının məcmusu" kimi müəyyən olunur, ikinci fəsildə (3-cü və 5-ci maddələrdə) isə mədəniyyət sahəsində dövlət siyasətinin əsas istiqamətləri və vəzifələri müəyyənləşdirilir (8). Buradan belə nəticə çıxarmaq olar ki, Azərbaycan Respublikasında mədəniyyətin özü milli prioritetlər sırasındadır və dövlət mədəniyyət siyasəti milli təhlükəsizlik strategiyasının tərkib hissəsi kimi tanınır.

Mədəniyyət siyasətinin prioritetləri sırasnda iqtisadiyyat, azadlıq, xidmətlərin göstərilməsi və istehlak məsələləri ilə yanaşı bir sıra başqa məsələlər də dayanır ki, zənnimizcə, onları aşağıdakı şəkildə müəyyənləşdirmək olardı: birincisi, dövlət "yüksək" sənəti fəal şəkildə dəstəkləməyə, maarifçi təbəqələr isə bu işdə irəliləməyə çalışmalıdırlar; ikincisi, sənət adamları təkcə özlərini ifadə etməməli, xalq arasında "zövqləri tərbiyə etməlidirlər" və üçüncüsü, sənətkar da, dövlət də, cəmiyyət də ortaq dəyərləri rəhbər tutaraq eyni vaxtda fəaliyyət göstərməyə çalışmalıdırlar.

**Sosial-mədəni sferanın idarə olunması**

Məsələ ilə bağlı bir sıra tədqiqatçıların adını çəkmək yerinə düşərdi. Belə ki, E.Babosov, S.İkonnikova, Y.Ryumarenko, D.Spivak, M.Stepkon, İ.Oqorodnik, M.Strikha, Q.Tulçinski, A.Flierin əsərləri mədəniyyətin inkişafında dövlətin fəaliyyətinin müxtəlif aspektlərinin işıqlandırılmasına diqqət yetirirlər. Rusiyada və Ukraynada dövlət mədəniyyət siyasətinin prinsiplərinin inkişafına N.Genova, V.Şeyko, Y.Boqutskiy, Y.Bezgin, A.Semaşko və b. mühüm töhfələr vermişlər. A.Qrişşenkonun, V.Solodovnikin əsərləri kütləvi mədəniyyət sahəsində, mədəniyyətin kommersiya sektorunda dövlət tənzimlənməsi prinsiplərinin işlənib hazırlanmasına həsr edilmişdir. Bununla bağlı bir sıra yerli tədqiqatçıların da adlarını çəkmək mümkündür: M.Süleymanov, N.Məmmədov, S.Qasımova, M.Bayramov və b.

Dövlət mədəniyyət siyasətinin fəaliyyətinin bir çox xüsusiyyətlərinin kifayət qədər öyrənilməsinə baxmayaraq, onun əsas prioritetlərinə nail olunmasında dövlət mədəniyyət siyasətinin vektorunun formalaşması ilə bağlı müzakirələr hazırda da davam edir. Buna səbəb mənəvi dəyərlərə və mədəniyyət müəssisələrinin xidmətlərinə artan tələbatdır. Bazar şəraitində mədəniyyətə dövlət dəstəyinin zəruriliyi, mədəni yaradıcılığın humanist aspektlərinin müəyyən edilməsi məsələsi də müzakirə olunur.

Mədəniyyət insan potensialının keyfiyyətcə yüksəldilməsi üçün cavabdeh olan sosial əhəmiyyətli sənaye sahələrinə aiddir. Buna görə də, dövlət dəstəyinə ehtiyacın nəzəri əsaslandırılmasından söz açarkən, mədəni fəaliyyətin yüksək sosial əhəmiyyətindən danışmamaq mümkün deyil.

Əvvəlcə dövlətin mədəniyyətin inkişafında rolunu qəbul etməyən bir sıra arqumentləri nəzərdən keçirək: mədəniyyətə dövlət dəstəyi zənginlərin estetik zövqünün maliyyələşdirilməsinə yönəldilir; dövlət vəsaitinin ayrılması barədə qərar vəzifəli şəxslər tərəfindən öz üstünlükləri əsasında qəbul edilir; dövlət dəstəyi mədəniyyətə xeyirdən çox ziyan vurur, çünki yaradıcılığı kökündən məhv edir. Bu arqumentlərdə müəyyən dərəcədə həqiqət olsa da, onlarla tam razılaşmaq olmur. Çünki mədəniyyət bir xalqın maddi və mənəvi aləmini, onun tarix boyu yaratdığı nümunələrin, onun inkişafının, mövcudluğunun əsasıdır və bu səbəbdən onun inkişaf etdirilməsinə dövlətin milli təhlükəsizliyinin strategiyası kimi yanaşılmalıdır.

Daha sonra, cəmiyyətin əsas sistemlərinin fəaliyyətini tənzimləyən dövlət əsas "sifarişçi" və "sponsor" kimi çıxış edir, mədəni fəaliyyətə maddi dəstək verir və ya müəyyən imtiyaz və güzəştlər həyata keçirir. Lakin dövlət bu işi təkbaşına görmək iqtidarında deyildir, onun vətəndaş cəmiyyətinin dəstəyinə də ehtiyacı vardır. Məhz bu səbəbdən qeyri-hökumət təşkilatlarının, xeyriyyəçilərin, iş adamlarının mədəni prosesdə iştirakına dövlət şərait yaradır, onlara müəyyən güzəştlər edir və bununla da öz mövqeyini qorumuş olur. Lakin mədəni prosesin inkişafında qeyri-hökumət təşkilatlarının tələb etdiyi mədəni fəaliyyətin mərkəzləşdirilməsi ilə onun demokratikləşməsi meylləri arasında tez-tez konfliktlər yaranır. Dövlət orqanlarının mədəniyyət müəssisələrinin işinə müdaxiləsi bəzən zəruri olur, çünki dövlət dəstəyi olmadan onlar hər cür çətinliklərin (maliyyə, hüquqi, siyasi) öhdəsindən gələ bilmir və mövcudluğunu dayandırırlar.

Dövlətlə yanaşı, mədəniyyətin inkişafını tənzimləmə funksiyalarına biznes tərəfindən də getdikcə daha çox müdaxilə edilir. Bu gün mədəni həyat və fəaliyyətin tənzimlənməsinin

xeyriyyə fondları, sponsorluq, himayədarlıq, mükafatlar, fəxri adlar və s. kimi təsisat və formaları hüquq normalarına əlavə kimi çıxış edir.

Sosial-mədəni sferanın idarə olunmasında dövlətin rolu bir sıra rıçaqlardan istifadəni nəzərdə tutur: birincisi, mədəniyyət müəssisələri şəbəkəsinin yaradılması; ikincisi, dövlət orqanlarının fəaliyyəti; üçüncüsü, müxtəlif mülkiyyət formalı mədəniyyət müəssisələrinin fəaliyyəti üçün hüquqi şəraitin, normaların, təminatların yaradılması, mövcud qanunların icrasına nəzarət və nəhayət, dördüncüsü, mədəniyyət və incəsənətin dəstəklənməsi və inkişafını təşviq edən vergitutma və digər tədbirlər, o cümlədən qərarların qəbulu, fəaliyyəti və nəticələrinin təhlili üçün informasiya təminatı (3, s.53-54).

Müxtəlif tarixi dövrlərdə cəmiyyətin sabitliyini təmin etmək üçün yaradıcılıq azadlığını təşviq etmək, məhdudlaşdırmaq və çox vaxt boğmaq üsullarından (məsələn, senzuradan) istifadə edərək mədəni həyatı istiqamətləndirən sosial institutlar mövcud olub və indi də mövcuddur. Buradan da dövlət institutlarının tam fəaliyyət göstərməsi sosial-mədəni inkişafın mühüm şərtidir, çünki o, funksional sistem kimi mədəniyyətin canlılıq səviyyəsinin yüksəlməsinə və ya azalmasına təsir vasitələrinə malikdir (3, s.218).

Kanadalı professor L.Pal dövlət siyasətinin mahiyyətini əsaslandıraraq sübut edir ki, istənilən dövlət siyasəti onu həyata keçirənlər və ona əməl edənlər üçün bir növ göstəricidir. “Dövlət qulluqçuları konkret halda hökumətin onlardan hansı hərəkətləri tələb edəcəyini necə bilə bilər? Onlar dövlət siyasətinə bələdçi kimi müraciət edirlər. Vətəndaşlar hökumətin konkret halda nə etdiyini və ya etmədiyini haradan biləcəklər? Onlar dövlətin siyasətinə üz tuturlar” – deyə alim vurğulayır (2, s. 21). L.Pal daha sonra qeyd edir ki, dövlət siyasəti hadisələrin gedişatını yaxşılığa doğru dəyişmək üçün əsasən məqsədyönlü müdaxilədən istifadə edir. Ona görə də müasir hökumətlərdən qətiyyətli addımlar atması və onların fəaliyyətsizliyini tənqid etməsi gözlənilir, deyə o vurğulayıb. Eyni zamanda, alim siyasətin təhlilinə əsaslanaraq belə qənaətə gəlir ki, dövlət siyasəti təkcə müəyyən hərəkətlərin ardıcıllığını deyil, həm də bu və ya digər problemlə bağlı hakimiyyətin düşünülmüş hərəkətsizliyini ifadə edə bilər. “Hərəkətdən çəkinmək, gözləmək, hər şeyi dəyişməz qoymaq – bütün bunlar siyasi seçim ola bilər” (2, s. 22).

Tədqiqatımızın kontekstində L.Palın mədəniyyət siyasətinin məzmunu ilə bağlı fikirləri mühüm əhəmiyyət kəsb edir. O qeyd edir ki, istənilən dövlət siyasətinin empirik məzmununu üç elementə, daha doğrusu: siyasətin əsasını təşkil edən problemin müəyyən edilməsinə, onun məzmununu və məntiqini deşifrə etməyin açarını, məqsədlərini, yəni bu siyasətin nəyə nail olmaq istədiyini, onun niyyətlərini, istiqamətlərini müəyyən etməyə və bunun üçün hansı vasitələrin seçildiyini öyrənməyə əsaslanır.

Cəmiyyətin transformasiyası dövlətdə bir çox proseslərin liberallaşdırılmasını nəzərdə tutur. Məşhur ingilis filosofu və sosioloqu K.Popperin qeyd etdiyi kimi, azadlıq dövlət tərəfindən təmin edilmədikdə, açıq şəkildə qeyri-mümkündür. Bu, azadlığın paradoksu deyilən şeydir, yəni azadlığı məhdudlaşdıran hər hansı nəzarətin olmaması onun əhəmiyyətli dərəcədə məhdudlaşdırılmasına səbəb olmalıdır. K.Popper həmçinin hesab edir ki, dövlət tərəfindən təhsil sisteminə müəyyən nəzarət lazımdır, əks halda uşaqlara qayğının olmaması onların azadlıqlarını qorumağa imkan vermir. Dövlət təhsilin hamı üçün əlçatan olmasını təmin etməlidir. Bununla belə, bu nəzarət həddindən artıq olmamalıdır, çünki bu, indoktrinasiya ilə nəticələnə bilər.

Alimin bu fikirlərini tam olaraq dövlət üçün “ögey uşaq” olmuş və həmişə qalıq maliyyə prinsipinin tətbiq olunduğu mədəniyyətə aid etmək olar. XX əsrin əvvəllərində mənəviyyat çatışmazlığını aradan qaldırmağın yollarını axtaran məşhur humanist A.Şveytser aradan qaldırılmalı olan bir neçə çətinliyi - nəyin olduğunu və nəyin olması lazım olduğunu dərk etməyin zəruriliyini qeyd edirdi. Mədəniyyətin yenilənməsi həm də ona görə çətinləşirdi ki,

hərəkatın daşıyıcısı yalnız fərdiliyə malik olan fərdlər ola bilər. Alimin gəldiyi nəticə belədir: “...cəmiyyət fərdə fərdin ona təsirindən daha çox təsir etdikdə mədəniyyətin deqradasiyası başlayır, çünki bu halda həlledici dəyər – insanın mənəvi-əxlaqi qabiliyyətləri mütləq azalır. Cəmiyyətin mənəviyyatsızlaşması baş verir və o, dərk etməkdə, qərar verməkdə aciz olur” (5, s. 187).

Dövlət tənzimlənməsinin spesifik konfiqurasiyası müəyyən rıçaqların vurğulanmasından asılıdır. Sosial-mədəni sferanın inkişafının dövlət tənzimlənməsinin müvafiq hədlərini və formalarını müəyyən edərkən, ideoloji stereotiplərdən qaçaraq, toplanmış daxili və xarici təcrübəyə əsaslanmaq vacibdir.

**Mədəniyyətin inkişafında dövlətin rolu**

Mədəniyyət və incəsənətlə bağlı dövlətin aşağıdakı rolları mümkündür:

1. “köməkçi” - dövlət bütün diqqətini həm qeyri-kommersiya peşəkar, həm də həvəskar yaradıcılıqda müxtəlifliyin saxlanmasına və inkişafına cəmlədikdə, buna bəzi xüsusi üslub və cərəyanları deyil, ümumilikdə mədəni fəaliyyətləri dəstəkləməklə nail olur. Bu vəziyyətdə maliyyə mənbələri müxtəlifdir və hökumətin rolu yalnız bu müxtəlifliyi hər vasitə ilə təşviq etməkdir (hər şeydən əvvəl - qanunvericilik və vergi siyasəti). “Köməkçi”nin klassik nümunəsi ABŞ-da mədəniyyətə dövlət dəstəyidir.

2. “Patron” – dövlət peşəkar yaradıcılıq və fəaliyyət standartlarının təmin edilməsinə daha çox diqqət yetirdikdə. Məsələn, o, təqaüdlər vasitəsilə bədii mükəmməlliyi təşviq edir və “köməkçi”dən daha çox mədəni həyatda iştirak edir. Böyük Britaniya bunun tipik nümunəsidir.

3. “Memar” - mədəniyyət və incəsənətə dövlət tərəfindən yardım onun cəmiyyətin rifahının yüksəldilməsi proqramına daxil olduqda. Onun siyasəti mədəniyyət işçilərinin peşəkar standartlarından daha çox cəmiyyətin standartlarına əsaslanır. Eyni dəstək uzunmüddətli dövlət maliyyələşdirməsində də ifadə edilir. Bir "memar" nümunəsi Fransadır.

4. “Mühəndis” - mədəni fəaliyyətin və bədii yaradıcılığın həyata keçirilməsi vasitələri dövlət mülkiyyətində və sərəncamında olduqda. Məsələn, dövlət siyasi məqsədlərinə uyğun olan mədəniyyəti təbliğ edir. Keçmiş SSRİ və ya Çin Xalq Respublikası belə dövlət siyasətinin nümunəsidir (4, s.41-43).

Hər bir dövlətdə mədəniyyət sahəsində bu və digər dərəcədə diqqət mərkəzində olan məsələlər iqtisadi və siyasi (xarici və daxili) vəziyyətdən asılı olaraq dəyişə bilər. Bununla belə, Q.Tulçinskinin qeyd etdiyi kimi, hər bir ölkədə mədəni-siyasi həyat ənənələri ilə əlaqədar olaraq, müəyyən cəmiyyətə xas olan mədəniyyət sferasında dövlət tənzimlənməsinin müəyyən xarakteri və üslubu formalaşır (4, s.44).

Dövlət vətəndaşların mədəni inkişafı üçün imkan və şərait bərabərliyini təmin edir, milli ənənələri, cəmiyyətin siyasi və iqtisadi inkişaf səviyyəsini nəzərə almaqla mədəniyyətə dövlət dəstəyinin istiqamətlərini, məzmununu və formalarını müəyyən edir.

Mədəni irsin qorunması və inkişafının təminatçısı kimi dövlət borcludur:

- xalqın mədəni irsinin qorunub saxlanmasını prioritet hesab etmək və onun gələcək nəsillərə çatdırılmasını təmin etmək;
- mühafizə, bərpa və muzeyləşdirməyə ehtiyacı olan mədəniyyət obyekt və abidələrini mühafizə altına almaq,
- mədəni həyatın dəstəklənməsi və inkişafı üçün qanunvericilik bazasını təmin etmək və mədəniyyət sahəsində beynəlxalq və dövlət normalarına ciddi əməl olunması üçün inzibati tədbirlər görmək;
- mədəniyyət sahəsində azad yaradıcılıq və peşəkar fəaliyyət üçün sosial, iqtisadi və hüquqi təminatlar sistemini yaratmaq;
- mədəni həyatın inkişafına töhfə verən, hüquqi təminat verən və mədəniyyət sahəsində

xeyriyyəçiliyin inkişafı üçün real şərait (o cümlədən vergi siyasəti) yaradan qeyri-hökumət təşkilatlarını dəstəkləmək;

- mədəni dəyərlərin yaradılması, qorunması, yayılması və istehlakında əhalinin müxtəlif qruplarının təşəbbüsünü və iştirakını stimullaşdırmaq; beynəlxalq mədəni əlaqələrin, əlaqələrin və əməkdaşlığın qurulmasına kömək etmək (4, s.47).

Deməli, müasir cəmiyyətdə mədəni fəaliyyəti tənzimləyən əsas institut dövlətdir. Sivil ölkələrdə dövlətin həyata keçirdiyi mədəniyyət siyasətinin həcmi inkişaf edən ölkələrlə müqayisədə xeyli azdır. O, yaradıcılığa dəstək, onun həyata keçirilməsinə şərait yaratmaq kimi sahələri əhatə edir; qloballaşan dünyada milli mədəniyyətin qorunması; mədəniyyət sahəsində kommersiyalaşdırmanın mənfi təsirini azaltmaq üçün tədbirlərin işlənib hazırlanması; mədəni fəaliyyətlərin inzibati mərkəzləşdirilməsinin təşviq edilməsi; keçmişin mədəni irsinin qorunmasının təmin edilməsi; innovasiyaları və mədəni yeniləşməni təşviq etmək, eləcə də ölkə daxilində müxtəlif mədəni qruplar arasında qarşılıqlı əlaqə və anlaşmanı təşviq etməni əhatə edir.

İndiki vaxtda mədəniyyət siyasəti bir sıra məsələlərin hərtərəfli təhlilini tələb edir, bunlar arasında: əhalinin müxtəlif qruplarında mədəni vəziyyət; mədəniyyət işçilərinin, incəsənət xadimlərinin vəzifəsi; bütün səviyyələrdə mədəniyyətə dəstək üçün səylərin əlaqələndirilməsi; mədəni inkişaf hüququnun təmin edilməsi; mədəniyyət sahəsində regional siyasət və s. göstərmək olar. Sonuncuya gəlincə, mərkəzsizləşdirmə siyasətinin uğuru daha çox hökumətlə yerli hakimiyyət orqanları arasında əməkdaşlıq səviyyəsindən, milli və regional mədəniyyət siyasətinin çevikliyindən asılıdır. Mədəniyyət siyasətinin əsas məqsədi – ortaya çıxan problemlər qarşısında cəmiyyətin bütövlüyünü qorumaqla yanaşı, siyasətin həlli üçün nəzərdə tutulmuş başqa vəzifələr də var. Bu, ilk növbədə, böhran dövründə mədəniyyətin maliyyələşdirilməsidir. Bundan əlavə, kommersiya strukturları və KİV-lər tərəfindən mədəniyyət və incəsənət əleyhinə təbliğat aparması ilə bağlı dövlətin mədəniyyət siyasətinin kursunun müəyyənləşdirilməsi vacibdir.

**Mədəniyyət iqtisadiyyatı**

Nəhayət, mədəni təhlükəsizliklə bağlı toxunmaq istədiyimiz sonuncu məsələ mədəniyyətin maliyyələşdirilməsi problemidir. Burada sual oluna bilər: dövlət mədəniyyətə pul xərcləməlidirmi? Cavab birmənalıdır: bəli, xərcləməlidir. Çünki bu, xeyriyyəçilik deyil, ölkənin əsas dəyərinin – vətəndaşın "istehsal edildiyi" ən mühüm sənayeyə sərmayədir.

Xarici təcrübəyə yaxından nəzər salsaq, biz bu gün ümumilikdə mədəniyyət iqtisadiyyatının üç modelini fərqləndirə bilərik: Çin, Avropa və Amerika. Hər üç model aralarındakı müəyyən fərqlərə baxmayaraq, mədəniyyətin subsidiyalaşdırılmasını nəzərdə tutur.

Çində bu, sovet mədəniyyətinin maliyyələşdirilməsi modelidir və xarakterik bir tezliklə mütləq şəkildə həyata keçirilir. Bu modelin nəticəsi özünü onda göstərir ki, Çin hazırda başqa şeylərlə yanaşı, mədəni məhsulun satışından əldə olunan gəlirlərə görə də dünya liderləri sırasındadırlar.

Avropada (ən diqqətçəkicisi – Fransada) bu, dövlət tərəfindən əsasən "kvotalar, stimullar və subsidiyalar" mexanizmləri vasitəsilə milli mədəniyyətin dəstəklənməsi siyasətidir.

Nəhayət, Birləşmiş Ştatlara gəldikdə burada mədəniyyət sahəsinə ciddi şəkildə biznes kimi baxılır: həm öz-özlüyündə gəlirli biznes kimi, həm də ABŞ üçün də biznes olan qlobal "dəyər" hökmranlığının aləti kimi. Formal olaraq, sponsorluğun əsas yükünü fiziki şəxslər və yaxud korporasiyalar daşıyır. Lakin unutmaq lazım deyil ki, biznes Amerika xalqının onurğa sütunu, həm Amerika dövlətinin, həm də Amerika maliyyə sisteminin "təsisçisi"dir.

Mədəniyyətin maliyyələşdirilməsində başqa bir yanaşmada iki əsas model qeyd edilir: anglo-sakson və kontinental Avropa.

Mədəniyyətin maliyyələşdirilməsinin Anqlo-Sakson modeli fərdi və korporativ

himayəyə diqqət yetirməklə mədəniyyətə dəstək üçün xeyriyyə fondlarının üstünlük təşkil etdiyini nümayiş etdirir. Tipik misal ABŞ-ı göstərmək olar, burada mədəniyyətə dövlət dəstəyi mədəniyyət təşkilatlarının ümumi maliyyə resurslarının təxminən 10%-ni təşkil edir (6, s.1). Böyük Britaniyanın təcrübəsi göstərir ki, dövlət ABŞ-a nisbətən daha çox iştirak edir, lakin mədəniyyətin dəstəklənməsində xeyriyyə ianələrinə də xüsusi diqqət yetirilir.

Anqlo-sakson modelinin tam əksi kontinental Avropa modelidir, onun ölkələrində mədəniyyət və incəsənətin dövlət büdcəsindən maliyyələşdirilməsi ənənəsi tarixə söykənir. Məsələn, Fransada mədəniyyətdə sponsorluq və himayədarlığı stimullaşdırmaq üçün geniş-miqyaslı tədbirlər 90-cı illərin ortalarından tətbiqinə baxmayaraq, mədəniyyətin maliyyələş-dirilməsində ən böyük pay dövlət fondlarından gəlir (1, s.174 –177).

Almaniyada, Skandinaviya ölkələrində mədəniyyətin dəstəklənməsində dövlətin rolu ənənəvi olaraq çox böyükdür. Rusiyada mədəniyyət və incəsənətə maliyyə dəstəyi təcrübəsi də dövlət vəsaitlərinin üstünlük təşkil etdiyinə dəlalət edir. Qlobal maliyyə böhranının nəticələri mədəniyyət və incəsənətə dövlət xərclərinin həssaslığını və etibarsızlığını nümayiş etdirdi. Bir çox ölkələrdə dövlət büdcəsinin kəsirinə qarşı mübarizə və büdcə xərclərinin azaldılması çərçivəsində mədəniyyət və incəsənətə dövlət dəstəyinin həcminin azaldılması kursu elan edilib. Eyni zamanda, həm fiziki şəxslər, həm də korporativ himayədarlar tərəfindən mədəniyyətə edilən xeyriyyə ianələrinin azalması tendensiyası da var. Üstəlik, ikincisi mədəniyyətdə sponsorluq və himayəçilik ənənələrinin güclü olduğu ölkələr üçün də keçərlidir (6). How the United States Funds the Arts. (2007). National Endowment for the Arts. Second Edition. Washington (6). Nəticə etibarı ilə müxtəlif mədəni layihələrin və təşəbbüslərin həyata keçirilməsi təhlükə altında olmaq riski ilə üzləşir.

**İşğaldan azad olunmuş ərazilər və Azərbaycanın dövlət mədəniyyət siyasətinin bəzi aspektləri**

Torpaqlarını tarix boyu hissə-hissə itirən, son 100 ildə isə ciddi mədəni (7) və ekoloji soyqırıma məruz qalan Azərbaycan xalqı nəhayət ki, ilk dəfə olaraq ərazisinin müəyyən bir hissəsini – Qarabağı işğaldan azad edərək dövlət suverenliyini bu torpaqlar üzərində bərpa edə bildi. Azərbaycanın yüzlərlə tarixi-dini abidələri erməni vandalizmi nəticəsində məhv edilmişdir ki, bu da "Silahlı münaqişə baş verdikdə mədəni dəyərlərin qorunması haqqında" Haaqa Konvensiyasına tamamilə ziddir (9). Bir çox Qərb dövlətlərindən və güclü diaspora dayaqlarından istifadə edən erməni barbarları Azərbaycan xalqının mədəni irsini, onun tarixini məhv etmək, hər vəchlə bu məkanın ermənilərə məxsus olduğunu sübuta yetirmək fikrindən hələ də daşınmamışlar. Təəssüf doğuran fakt odur ki, əsil həqiqətdən xəbardar olan qərb “alimləri” saxtakarlığa göz yumur, azı 1500 il bu ərazilərdə izi-tozu olmayan gəlmə bir xalqı Qarabağdakı maddi və mənəvi abidələrə sahib çıxarmaq üçün dəridən-qabıqdan çıxırlar.

Bütün dediklərimiz onu göstərir ki, mədəniyyət – hər bir xalqın milli təhlükəsizliyinin qarantı, onun müstəqilliyi və gələcəyidir. Məhz bu səbəbdən mədəni təhlükəsizliyə dövləti-mizin milli strategiyasında daha çox yer ayrılır, bunun üçün iqtisadi, maliyyə, inzibati, siyasi, diplomatik və d. vasitələrdən geniş istifadə olunmasına çalışılır.Təbii ki, erməni saxtakarlığı ilə mübarizə onların Cənubi Qafqazda Azərbaycanla qonşu olduğu zaman ərzində həmişə aktual olaraq qalacaqdır. Deməli, dövlət mədəniyyətə daha çox diqqət ayırmalı, ona göstərilən dəstəyi heç vəchlə azaltmamalıdır.

**Nəticə**

Azərbaycan Respublikasında mədəniyyətin özü milli prioritetlər sırasındadır və dövlət mədəniyyət siyasəti milli təhlükəsizlik strategiyasının tərkib hissəsi kimi tanınır.

Mədəniyyət insan potensialının keyfiyyətcə yüksəldilməsi üçün cavabdeh olan sosial əhəmiyyətli sənaye sahələrinə aiddir. Buradan da dövlət institutlarının tam fəaliyyət göstərməsi sosial-mədəni inkişafın mühüm şərtidir, çünki o, funksional sistem kimi mədəniyyətin canlılıq

səviyyəsinin yüksəlməsinə və ya azalmasına təsir vasitələrinə malikdir. Müasir cəmiyyətdə mədəni fəaliyyəti tənzimləyən əsas institut dövlətdir. Sivil ölkələrdə dövlətin həyata keçirdiyi mədəniyyət siyasətinin həcmi inkişaf edən ölkələrlə müqayisədə xeyli azdır.

Respublikada mədəni təhlükəsizliyə dair konsepsiyanın qəbul edilməsinə ehtiyac duyulur.

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI**


1. Косенко С.И. (2008). Политика культуры или культура политики. Опыт Франции. М.: Восток-Запад.
2. Пал Л.А. Анализ государственной политики: Пер. с англ. И. Дзюбы. – К.,: Основы, 1999.
3. Саракун Л.П. Государство и культура: проблемы взаимодействия. Всероссийский журнал научных публикаций № 4(19) 2013.
4. Тульчинский Г.Л. Менеджмент в сфере культуры. – СПб.: Из-во «Лань», 2001.
5. Швейцер А. Благоговение перед жизнью. – М., 1993.
6. How the United States Funds the Arts. (2007). National Endowment for the Arts. Second Edition. Washington.
7. John Cooper, *Raphael Lemkin and the Struggle for the Genocide Convention* (New York: Palgrave Macmillan, 2008)
8. http://www.e-qanun.az/framework/25303
9. http://www.anl.az/down/meqale/ses/2011/may/zh204.htm


**Рафаил Гасанов**

## ГОСУДАРСТВЕННАЯ КУЛЬТУРНАЯ ПОЛИТИКА КАК СОСТАВНАЯ ЧАСТЬ СТРАТЕГИИ НАЦИОНАЛЬНОЙ БЕЗОПАСНОСТИ

***Резюме***


В статье обсуждается государственная культурная политика, ее место и роль в системе национальной безопасности, а также показано, что культура в Азербайджанской Республике является одним из национальных приоритетов, а государственная культурная политика признана неотъемлемой частью стратегии национальной безопасности. Культура – одна из социально значимых отраслей, отвечающая за качественное развитие человеческого потенциала. Основным институтом, регулирующим культурную деятельность в современном обществе, является государство, хотя общественным организациям, благотворительной деятельности и бизнесменам здесь тоже есть место. Культура – гарант национальной безопасности каждого народа, его независимости и будущего. В нашей стране, как и во многих других странах, есть необходимость принять концепцию в области культурной безопасности.

***Цель*:** изучить роль государственной культурной политики в стратегии национальной безопасности.

***Методология:*** делается попытка понять изучаемый объект с позиций системного и функционалистского подхода, анализируются его возможности для получения новых знаний, связанных с сохранением и развитием культурного наследия.

***Научная новизна:*** Культура сама по себе является одним из национальных приоритетов Азербайджанской Республики, а государственная культурная политика признана неотъемлемой частью стратегии национальной безопасности.


***Ключевые слова:*** *государственная культурная политика, национальная безопасность, экономика культуры, культурное наследие, культурный геноцид*

**Rafail Hasanov**

**STATE CULTURAL POLICY AS AN INTEGRAL PART OF THE NATIONAL SECURITY STRATEGY**

***Summary***

The article discusses the state cultural policy, its place and role in the national security system, and also shows that culture in the Republic of Azerbaijan is one of the national priorities, and the state cultural policy is recognized as an integral part of the national security strategy. Culture is one of the socially significant sectors responsible for the quality development of human potential. The main institution that regulates cultural activities in modern society is the state, although public organizations, charitable activities and businessmen also have a place here. Culture is the guarantor of the national security of every nation, its independence and future. In our country, as in many other countries, there is a need to adopt a concept in the field of cultural security.

***Purpose:*** to study the role of state cultural policy in national security strategy.

***Methodology:*** an attempt is made to understand the object under study from the standpoint of a systemic and functionalist approach, its possibilities for obtaining new knowledge related to the preservation and development of cultural heritage are analyzed.

***Scientific novelty:*** culture itself is one of the national priorities of the Republic of Azerbaijan, and the state cultural policy is recognized as an integral part of the national security strategy.

***Keywords:*** *state cultural policy, national security, cultural economics, cultural heritage, cultural genocide*